# Mədəniyyət və turizm naziri Göytəpə neolit dövrü abidəsində aparılan arxeoloji işlərlə tanış olub



Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Tovuz rayonu ərazisindəki Göytəpə qədim yaşayış məskənində aparılan arxeoloji işlərlə tanış olub. Abidənin tədqiqatçısı, Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev Göytəpə qədim yaşayış məskənində aparılan əsaslı arxeoloji araşdırmaların ilkin nəticələri haqqında ətraflı məlumat verib. Bildirilib ki, eramızdan əvvəl VI minilliyə aid edilən bu məkanda ölkə başçısının müvafiq Sərəncamı ilə arxeoloji park yaradılır. Göytəpə neolit dövrü abidəsi bölgədə mədəni turizmin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Nazir Ə.Qarayev Göytəpə qədim yaşayış məskənində aparılan araşdırmaları, həmçinin "Arxeoloji Park" və onun ətrafında "Neolit kəndi"nin yaradılması ideyasını müsbət qiymətləndirib. Bundan əlavə, nazir ölkə Prezidenti İlham Əliyevin "Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı bəzi tədbirlər haqqında" 18 aprel 2012-ci il tarixli Sərəncamından irəli gələn işlərin ilkin nəticələri ilə tanış olaraq, irad və təkliflərini bildirib.